**Aytən İlham qızı ALIŞANLI**
Bakı Dövlət Universiteti, dissertant
E-mail: alishanli.aytan.ilham@bsu.edu.az

# EMOSİONAL İNTELLEKTİN QARIŞIQ MODELLƏRİ: TƏŞƏKKÜLÜ VƏ İNKİŞAFI

**Xülasə**

Psixologiya elmində emosional intellekt anlayışına nəzəri və praktik yanaşmaların zamanla inkişaf etməsi nəticəsində müxtəlif model və anlayışlar meydana çıxmışdır. Təqdim olunan elmi məqalədə emosional intellektin qarışıq modellərinin təşəkkülü və inkişaf mərhələləri nəzərdən keçirilir. Hər bir model onun yaranması, struktur komponentləri, tətbiqi əhəmiyyəti qeyd olunmaqla təhlil olunur. Belə ki, geniş mübahisələr yaradan, fərqli yanaşmaların nəticəsi kimi meydana çıxan emosional intellektin qarışıq modellərinin nəzəri təhlili bu anlayışın müasir dərki və qiymətləndirilməsində mühüm yer tutur.

**Açar sözlər:** emosional intellekt (Eİ), emosional intellektin modelləri, qarışıq modellər

**UOT:** 159.9
**DOİ:** https://doi.org/ 10.54414/WWHA6099

**Giriş**

Son illər müasir psixologiyada koqnitiv və affektiv proseslərin təbiəti və onların qarşılıqlı əlaqəsi haqqında təsəvvürlərin inkişafının nəticəsi olaraq yaranan “emosional intellekt” anlayışına, onun məzmun və xüsusiyyətlərinə yüksək maraq müşahidə olunur.

20-ci əsrin sonlarında psixologiya elminin terminologiyasına daxil olan emosional intellekt çoxtərəfli, perspektivli tədqiqat istiqaməti kimi məşhurlaşmışdır. Emosional intellekt, insanın özünün həmçinin başqalarının emosiyalarını anlaya, əhəmiyyətini dərk edib təsnif edə bilməsi və onları idarə edə bilməsi bacarığı kimi təsvir edilir. Emosional intellekt xarici aləmin qanunauyğunluqlarını əks etdirən mücərrəd və konkret intellektdən fərqli olaraq daxili aləmi və onun şəxsiyyətin davranışı ilə əlaqələrini, reallıqla qarşılıqlı fəaliyyətini əks edir. Emosional intellektin struktur komponentlərinə münasibətdə tədqiqatçılar arasında fikir birliyi mövcud deyil. Bu anlayışın nəzəri-praktik əhəmiyyəti, müxtəlif həyat situasiyalarında tətbiqi haqqında təsəvvürə tam yiyələnmək, şəxsiyyətin və ona korreksiyalı, inkişaf etdirici təsirin öyrənilməsində adekvat mövqe tutmaq üçün emosional intellekt modellərinin təşəkkülü, inkişafı prosesləri barədə düzgün təsəvvürə malik olmaq xüsusi əhəmiyyət kəsb edir.

**Əsas mətn**

Emosional intellekt modelləri, bu anlayışın fərqli tədqiqatçılar tərəfindən müxtəlif baxış bucağı ilə təsnif edilməsi nəticəsində ortaya çıxmışdır.

Elmi ədəbiyyatın təhlili emosional intellektin ənənəvi modellərini bu şəkildə differensasiya etməyə imkan verir:

1. Qabiliyyətlər modeli (C.Mayer, P.Salovey)
2. Qarışıq modellər (D.Qoulmen, R.Bar-On, Robert K.Kuper və A.Savaf)

Differensasiyanın mahiyyəti ondan ibarətdir ki, emosional intellekt qabiliyyətlər modeli çərçivəsində şəxsiyyətin koqnitiv xarakteristikası kimi, qarışıq modellərdə isə koqnitiv bacarıqlarla şəxsiyyətin xarakteristikasının birləşməsi şəklində izah olunur.

Emosional intellektin ilk nəzəri modeli Con Mayer və Piter Salovey tərəfindən işlənib hazırlanmışdır. Onlar yaratdıqları nəzəriyyə çərçivəsində emosional intellektə “Emosiyalarda olan informasiyanı emal etmək bacarığı: emosiyaların əhəmiyyətini, onların bir-biri ilə əlaqəsini müəyyənləşdirmək, emosional informasiyadan düşüncənin və qərar qəbuletmənin əsası kimi istifadə etmək” [9, s.197] kimi tərif vermişdilər.

Alimlər ilk tədqiqatlarında emosional intellekti üç komponentdən ibarət anlayış kimi qeyd etsələr

də, modelin təkmilləşdirilməsi ilə emosional intellekti dörd qrup qabiliyyətlər şəklində müəyyən ediblər:

- emosiyaları qavrama və identifikləşdirmə;
- emosiyalardan istifadə;
- emosiyaları anlama;
- emosiyaların dərk olunmuş tənzimlənməsi.

Müəlliflərin fikrincə, komponentlər iyerarxiya üzrə qurulur və insan tərəfindən ardıcıl şəkildə ontogenezdə mənimsənilir. Hər bir komponent həm özünün, həm də digərlərinin emosiyalarına aid olur. Bu modeldə qabiliyyətlərin hər tipi bir neçə komponentdən ibarətdir. Emosiyaların identifikasiyası və istifadəsi iki komponentə bölünür. Onlardan birincisi özünüdərkə, ikincisi digər insanlardakı emosiyalara yönəlib. Emosiyaların tənzimlənməsi iki tərkib hissəsindən ibarətdir: özünün və digərlərinin emosiyalarını tənzimləmək. Emosiyalardan təfəkkürdə və fəaliyyətdə istifadə çevik planlaşdırmanı, yaradıcı təfəkkürü, motivasiya bacarığını nəzərdə tutur.

1999-cu ildən etibarən C.Mayer və P.Saloveyin emosional intellekt haqqında geniş tədqiqatlarına D.Karuzo da qoşulmuşdur. Beləliklə, 2002-ci ildə emosional intellekti obyektiv üsulla ölçməyə imkan yaradan MSCEIT (Mayer-Salovey-Caruso Emotional Intelligence Test) təqdim olunmuşdur. Özündə qrafik, vizual tapşırıq, verbal test və sorğuları cəmləşdirən bu testin çoxsaylı tədqiqatlarda istifadəsi müxtəlif həyat sferalarında (ailə, idarəetmə, təhsil və s.) emosional intellekt və insanların nailiyyətləri arasındakı qarşılıqlı əlaqəni aşkar etməyə imkan yaratdı.

C.Mayer və P.Salovey tərəfindən formalaşdırılmış qabiliyyətlər modeli emosional intellektin sonrakı inkişafında baza rolunu oynamış, yalnız nəzəri əsaslarını formalaşdırmaqla qalmamış, həmçinin sonrakı tətbiqi modellər üçün nəzəri-metodoloji əsas yaratmışdır.

Emosional intellektin təsnifatına ikinci yanaşma qarışıq modelə aiddir. Burada emosional intellektə “hər bir konkret insana xas olan əqli və şəxsi keyfiyyətlərin birləşməsi kimi” baxılır [6, s. 87]. Qarışıq modellər oxşar ideyalar, nəzəri baxışlar əsasında formalaşmış olsa da, daxili quruluşuna, komponentlərinə və tətbiq sahələrinə görə fərqlilik təşkil edir.

Eİ-nin (emosional intellektin) qarışıq modelləri içərisində bu anlayışı daha geniş kütləyə tanıdan, praktik əhəmiyyəti ilə seçilən Daniel Qoulmenin konsepsiyası xüsusi yer tutur. Onun müəllifi olduğu “Emosional intellekt”(1995) kitabının çapından sonra termin daha da məşhurlaşmağa başladı. Nəşr olunduğu dövr üçün yenilik hesab oluna biləcək kitab Eİ anlayışına elmi maraq yaratmaqla yanaşı biznes və təhsil sahələrində Eİ barədə təsəvvürləri inkişaf etdirmək zərurəti və elmi anlayışın yeni istiqamət üzrə inkişaf xətti ilə irəliləməsinə təkan yaratdı.

D.Qoulmenə görə emosional intellekt şəxsiyyətə hiss etməyə, özünü motivasiya etməyə, əhvalını tənzimləməyə, impulsiv təzahürlərə nəzarət etməyə və beləliklə gündəlik həyatda uğur qazanmağa imkan verən faktorların cəmidir. D.Qoulmen Eİ-in önəmini vurğulayaraq qeyd edir: “Emosional intellekt IQ qədər geniş yayılıb şəxsi keyfiyyətlərin bir meyarı kimi cəmiyyətdə möhkəmlənərsə, ailələrimizin, məktəblərin, iş yerləri və təşkilatların daha humanist və faydalı olacağına inanıram” [2, s.21].

D.Qoulmen tərəfindən emosional intellektin ilk təqdim edilən strukturu iyerarxiya prinsipi üzərində qurulmuşdur. Belə ki, bir komponent digərinin ya ilkin şərtinə, ya da nəticəsinə çevrilirdi. Beləliklə, ətrafdakıların emosiyalarını idarə etmək üçün onlar dərk edilməli və lazımi emosional vəziyyətlər yaradılmalıdır. Nəticədə ətrafdakılarla məmnunedici münasibətlər yaranacaq.

D.Qoulmen Eİ-nin strukturunu ilkin olaraq 5 tərkib hissəsinə ayırmışdır:

-emosional vəziyyətlərin dərki və adlandırılması;
-emosional vəziyyətlərin idarə olunması;
- özünütəhrik;
- digərlərinin emosiyalarını anlama;
- şəxsiyyətlərarası münasibətə daxil olmaq.

Tədqiqatçı daha sonra emosional kompetentlik (səriştə) modeli çərçivəsində yenidən işlənmiş struktur təqdim etmişdir. Bu struktur özündə müxtəlif istiqamət və keyfiyyətli parametrlərdən ibarət şəxsi və sosial kompetentliyi birləşdirir.

D.Qoulmen şəxsi kompetentliyə özünüdərk və özünənəzarəti aid etmişdir. Sosial kompetentliyə isə sosial həssaslıq, münasibətlərin idarə olunması kimi komponentlər aiddir. Beləliklə təkmilləşdirilmiş modelə dörd komponent və onlarla bağlı olan on səkkiz bacarıq daxildir.

**Cədvəl 1.**

**D.Qoulmenin emosional kompetentlik modeli**

| **Şəxsi kompetentlik** | **Sosial kompetentlik** |
|---|---|
| **<u>Özünüdərk</u>**<br>-emosional özünüdərk<br>-dəqiq özünüqiymət<br>-özünəinam | **<u>Sosial həssaslıq</u>**<br>-dərdə şərik olmaq<br>-işgüzar məlumatlılıq<br>-ehtiyatlılıq |
| **<u>Özünənəzarət</u>**<br>- emosiyalara nəzarət<br>- dürüstlük<br>- adaptivlik<br>-qələbə iradəsi<br>- təşəbbüskarlıq<br>-optimizm | **<u>Münasibətlərin idarə olunması</u>**<br>- ruhlandırmaq<br>-təsir etmək<br>-özünütəkmilləşdirməyə kömək<br>-dəyişikliklərə kömək<br>-konfliktlərin tənzimlənməsi<br>-komanda işi və əməkdaşlıq |

D.Qoulmenin tədqiqatlarının analizi bunu deməyə imkan verir ki, o təkcə "emosional intellekt" fenomenini özünəməxsus interpretasiya etməyib, həm də onun inkişafının vacibliyini və imkanlarını əsaslandırıb.

D.Qoulmenin Eİ yanaşması bu termini məşhurlaşdırmaqdan əlavə onun xüsusilə idarəetmə, təhsil və şəxsi inkişaf sahəsində tətbiqi ilə bağlı kifayət qədər nəzərəçarpacaq nəticələr vermişdir. İşə qəbul və fəaliyyətin qiymətləndirilməsi proseslərində Eİ əsas göstəricilərdən birinə çevrilmişdir. Bir çox qabaqcıl şirkətlər namizədlərin yalnız peşəkar bacarıqlarını deyil, emosional yetkinliklərini də qiymətləndirməyə başlamışdırlar. Məsələn, sosial bacarıqlar və empatiya komandada effektiv işləmək və münaqişələrin həllində mühüm rol oynayır. Təhsil sahəsində aparılan araşdırmalar göstərir ki, Eİ-də əsaslanan təlim proqramları şagirdlərin həm akademik nəticələrini, həm də sosial bacarıqlarını yaxşılaşdırır.

Beləliklə D. Qoulmen elmdə Eİ anlayışının praktik dəyərini vurğuladı, müasir psixoloji və idarəetmə praktikalarının ayrılmaz hissəsinə çevirdi.

Eİ-də yanaşmalar arasında ona yeni baxış bucağı yaradan məşhur klinik psixoloq R.Bar-Onun modeli xüsusi yer tutur. R.Bar-On emosional intellekti "insana müxtəlif həyat situasiyalarının öhdəsindən gəlmək imkanı verən bütün qeyri-koqnitiv bacarıqlar, biliklər və kompetentlik" [6, s.88] kimi başa düşürdü. Onun təklif etdiyi qeyri-koqnitiv modeldə Eİ-nin əsasına insanın şəxsi (onun malik olduğu bilik və bacarıqlarla birləşdirilən, həyat məsələlərini həll etmək bacarığına cavabdeh olan) keyfiyyətləri daxil edilmişdir.

Tədqiqatçı alim Eİ-ni sosial adaptasiyanı müəyyənləşdirən faktorlardan biri hesab edirdi. Onun fikrincə Eİ-nin yüksək səviyyəsinə malik insan daha tez adaptasiya olunur. R.Bar-Onun fikrinə görə, bu onda problemlərin həllinə yönələn öhdəsindən gəlmə strategiyasının olması ilə bağlıdır.

R.Bar-On 1985-ci ildə ənənəvi "psixometrik intellekt" termininə alternativ kimi sağlamlıq və emosional rifah sahəsində tədqiqatların nəticələrini əks etdirən doktorluq dissertasiyasında "emosionallıq əmsalı" terminini işlətmiş, 1988-ci ildə isə "emosional-sosial intellekt" (ESI – Emotional-Social Intelligence) anlayışını irəli sürmüşdür. R.Bar-On emosional-sosial intellekti insanın şəxsi və sosial uğurunu təmin edən bacarıqlar toplusu kimi izah edirdi. Yüksək emosional-sosial intellektə malik insanlar müxtəlif şəraitdə emosiya və düşüncələri üzərində nəzarəti saxlaya bilir, onu doğru istiqamətləndirməyi bacarır.

R.Bar-On emosional intellektin strukturunda on beş bacarığı özündə cəmləşdirən beş komponenti daxil etmişdir:

1. **Şəxsiyyətdaxili sfera**- öz emosiyalarını dərk etmə, özünü adekvat qiymətləndirmə və davranışını tənzimləmə. Özünə beş bacarığı daxil edir:

- özünütəhlil - öz emosiyalarını, onların yaranma səbəblərini başa düşmək bacarığı və onların ətrafdakılara hansı təsiri göstərdiyini anlama
- assertivlik - öz hiss və fikirlərini aydın ifadə etmək, eləcə də digər insanların arzu və reaksiyalarını nəzərə almaqla qəti əminlik nümayiş etdirmək.
- müstəqillik - qərarları müstəqil şəkildə qəbul etmək və emosiyalarına hakim olmaq
- özünəhörmət - özünü müsbət, səhvsiz qəbul etmə, zəif tərəflərini bilməsinə baxmayaraq özü haqqında müsbət rəyləri qoruyub saxlamaq bacarığı
- özünüaktuallaşdırma - potensialını realizə etmək, işdə və şəxsi həyatda əldə olunan uğurlardan məmnunluuq, potensialını maksimum inkişaf etdirmək bacarığı

2. **Şəxsiyyətlərarası sfera** – insanlarla qarşılıqlı münasibət yaratmaq. Modelə görə bu sferaya empatiya, sosial məsuliyyət və şəxsiyyətlərarası münasibət bacarığı aiddir.

- empatiya - digər insanların hisslərini başa düşmək, eləcə də insanlara onların hisslərinin sizə aydın olduğunu izah etmək
- sosial məsuliyyət - mənsub olduğu qrupa aidlik, qrupda əməkdaşlıq etmək, ətrafdakıların qayğısına qalmaq
- şəxsiyyətlərarası münasibət - emosional yaxınlıq hissinə əsaslanan qarşılıqlı faydalı münasibətləri qurub saxlamaq, özünü sərbəst və konfortlu hiss etmə

3. **Adaptivlik** – istənilən situasiyada çevik, realist və adekvat olmaq, dəyişikliklərə adaptasiya olmaq.

- dərketmə - insanın öz təcrübəsi ilə obyektiv mövcud olanın nisbətini düzgün müəyyənləşdirmək
- çeviklik - öz hiss, fikir və hərəkətlərinin dəyişən vəziyyətlərə uyğunlaşdırılması, tanış olmayan, gözlənilməz və tez dəyişən vəziyyətlə adaptasiya bacarığı
- problemləri həll etmə bacarığı - problemin üzə çıxarılması və müəyyənləşdirilməsi, eləcə də onun həllinin effektiv yollarının həyata keçirilməsi

4. **Stressi tənzimləmək** – Stressli vəziyyətlərin öhdəsindən gəlmək

- stressə tolerantlıq - stressli vəziyyətlərə fiziki və emosional gərginlik olmadan qarşı dura bilmək, soyuqqanlılıq, psixoloji dayanıqlılıq bacarığı
- impulsivliyə nəzarət - emosiyalar axınına tabe olmamaq, impulsiv reaksiyalara, ani verilmiş qərarlara nəzarət

5. **Ümumi əhval** – həyatın pozitiv qavranılması, özünü motivasiya

- həyatdan məmnunluq – həyatdan razı qalmaq, daxili məmnunluq
- optimizm – hadisələrdə müsbət tərəfi görmə və gələcəyə ümidlə baxmaq, həyatsevərliliyi qoruyub saxlamaq bacarığı

Emosional intellektin bu komponentlərini qiymətləndirmək üçün R.Bar-On 1996-cı ildə “emosionallıq əmsalı” EQ-i (Emotional Quotient Inventory) ölçülməsi üçün sorğu yaratmışdır. Sorğunun böyük üstünlüyü yüksək etibarlılığı və 6-18 yaş arası uşaqlar və yeniyetmələr üçün versiyasının olması idi.

Əqli qabiliyyətləri və şəxsi xüsusiyyətləri özündə birləşdirlən R.Bar-On modeli Eİ-də geniş və praktik yanaşmadır. Bar-Ona görə Eİ anadangəlmə deyil, öyrənilə bilən, inkişaf etdirilə bilən bacarıqların toplusudur. Alimin yanaşması Eİ insanın real həyata uyğunlaşmasına kömək etməlidir ideyasına əsaslanır. Həqiqətən tədqiqatlarda göstərilir ki, onun EQ-i sorğusu uyğunlaşma, subyektiv rifah və sosial uğurla yaxşı korrelyasiya olunur.

Emosional intellektin Robert K.Kuper və A.Savafın müəllifləri olduqları qarışıq modeli nəzəri və praktiki baxımdan xüsusi əhəmiyyət kəsb edir.

Robert K.Kuper qeyd edir ki, Eİ “hiss etmək, anlamaq və emosiyaların gücündən enerjinin, informasiyanın, yaradıcılığın, inam və qarşılıqlı əlaqənin mənbəyi kimi effektiv istifadə etmək bacarığından ibarətdir” [8, s.39]. Robert K.Kuper və A.Savaf emosional intellekt anlayışının liderlik və idarəetmədə önəmini vurğulayan və tədqiq edən ilk alimlərdən hesab olunur. Robert K. Kuper və A Savafın müəllifləri olduğu “Executive EQ” adlı kitabda emosional intellekt anlayışının dörd ölçülü modelini təklif etmişdilər. Modeldə emosional savadlılıq, emosional dayanıqlılıq, emosional dərinlik, emosional əlkimya olmaqla dörd əsas komponent nəzərdən keçirilir.

Emosional savadlılıq – bu komponent insanın öz emosiyalarını dərk etmək, onların səbəb və

nəticələrini anlamaq, həmçinin emosiyaların düzgün ifadəsini özündə birləşdirir.

Emosional dayanıqlılıq – çətin şəraitdə impulsiv reaksiyaların idarə edilməsi, stressə davamlılıq, dəyişikliklərə çevik reaksiya kimi amilləri özündə birləşdirir.

Emosional dərinlik – insanın özünün və başqalarının emosional dünyasını, tələbatlarını daha dərindən qavraması və onu analiz etməsini ifadə edir.

Emosional əlkimya – neqativ emosiya və yaşantıların pozitivə transformasiyasını ifadə edir.

Bəhs edilən qarışıq modeldə ilk üç komponent üstün olaraq şəxsi bacarıqları, sonuncu komponent sosial bacarıqları ifadə edir.

Emosional intellektin idarəetmə və liderlik funksiyalarına təsirinin araşdırılması, modelin professional iş həyatında tətbiqi ilə uğurlu, məhsuldar, sağlam münasibətlərin qurulması Robert K.Kuper, A.Savaf və ardıcıllarının əsas nailiyyəti sayıla bilər. R.Kuper və A.Savaf iddia edirlər ki, “əgər XX əsrin biznesində intellektual hərəkətverici qüvvə IQ olubsa, XXI əsrin əvvəlində bu EQ olacaq”[8]. Modelin psixologiyanın bir-birindən fərqli sahələrində tətbiqi sübut etdi ki, Eİ inteqrasiyası yalnız fərdi inkişafı deyil, həm də idarə və təşkilatların fəaliyyətini və sosial münasibətlərin inkişafını təmin edir.

Qarışıq modellər daha çox təhsil, idarəetmə, şəxsi inkişaf sahələrində tətbiqi əhəmiyyəti ilə tanınsa da, müasir dövrdə xüsusilə penitensiar psixologiyada bu modellərin praktikada istifadə olunması uğurlu nəticə əldə etməyə imkan verir. Penitensiar psixoloqların məhkumlar üzərində apardıqları tədqiqatlara əsaslanaraq, nəzərə almaq vacibdir ki, onların şəxsiyyətinin əqli, koqnitiv, emosional və iradə sferaları cəzaçəkmənin azadlıqdan məhrum etmə növünün müxtəlif mərhələlərində spesifik şəkildə özünü göstərir. Qarışıq modellərin tətbiqi, məhkumların yalnız cinayətkar davranışlarını dəyişdirməklə kifayətlənmir, eyni zamanda onları emosional və sosial inkişafa təşviq edir. Bu yanaşma, emosional intellekt sahəsində maariflənmə, eləcə də müxtəlif üsullarla gücləndirilməsi vasitəsilə məhkumların özünü tanıma, sosial adaptasiya və psixoloji rifahını artırır, həmçinin onların gələcəkdə cəmiyyətdə müsbət dəyişikliklər etmələrini təmin edir.

**Nəticə**

Mövcud elmi ədəbiyyatın təhlili əsasında belə nəticəyə gəlmək mümkündür ki, emosional intellekt xarici aləmin qanunauyğunluqlarını əks etdirən mücərrəd intellektdən fərqli olaraq insanın daxili aləmi və davranışı ilə əlaqələrini, reallıqla qarşılıqlı fəaliyyətini əks edir. Emosional intellekt tam olaraq özü barədə ümumi təsəvvürləri və digərlərini qiymətləndirməyi ehtiva etmir. O diqqəti daha çox dərketmə, öz emosional vəziyyətindən və ətrafdakıların emosiyalarından problemin həlli , davranışın tənzimlənməsi üçün istifadə üzərində cəmləyir. Emosional intellektin son məhsulu emosiyaları əksetmə və dərketmə əsasında qərar qəbul edilməsidir. Son nəticədə, emosional intellekt emosional özünü tənzimləmənin əsasında dayanır. Məhz emosional intellektdə qarışıq model nümayəndələrinin yanaşmaları ona yalnız koqnitiv bacarıq kimi deyil, şəxsiyyət xarakteristikası kimi yanaşmağa imkan verir. Bu baxımdan Eİ-də dair yeni yanaşma və nəzəri fikirlər inkişaf etsə də qarışıq Eİ modelləri aktuallığı və tətbiqi əhəmiyyətini qoruyub saxlayır.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Əliyeva.K.R. Şəxsiyyətin formalaşmasında emosional intellektin rolu. Monoqrafiya. Bakı: “Şərq-Qərb”, 2023, –248 s.
2. Goleman D. Emosional Zəka. Bakı, Qanun nəşriyyatı, 2019, –480 s.
3. Hüseynova G.Q., Vəliyeva Y.Ə. Emosiyaların psixologiyası. Ali məktəblər üçün dərs vəsaiti.Bakı, 2022, –284 s.
4. Гоулман Д. Эмоциональное лидерство. Искусство управления людьми на
5. Люсин Д.В. Современные представления об эмоциональном интеллекте // Социальный интеллект: Теория, измерение, исследования / Под ред. Д.В. Люсина, Д.В. Ушакова. – М.: Изд-во «Институт психологии РАН», 2004. – 176 с.
6. Р. Дж. Стернберг, Дж. Б. Форсайт, Дж.Хедланд и др. Практический интеллект.СПб.: Питер, 2002. — 272 с.
7. Bar-On, R. Emotional and social intelligence: Insights from the Emotional Quotient Inventory / R. Bar-On // R. Bar-On. J.D.A. Parker. Handbook of emotional intelligence. – San Francisco: Jossey- Bass, –2000. – P. 363–388.

8. Cooper, R.K., Sawaf, A. Executive EQ: Emotional Intelligence in Leadership and Organizations / R.K. Cooper, A. Sawaf. – New York: Grosset/Putnam, 1997. – 320 p.

9. Mayer, J. Emotional Intelligence: Theory, Findings and Im- plications / J. Mayer, P. Salovey, D. Caruso // Psychological Inquiry, 2004. – V. 15, № 3. – P. 197–215.

**Айтен Ильхам АЛЫШАНЛЫ**
Бакинский Государственный Университет, диссертант
E-mail: alishanli.aytan.ilham@bsu.edu.az

## СМЕШАННЫЕ МОДЕЛИ ЭМОЦИОНАЛЬНОГО ИНТЕЛЛЕКТА: ФОРМИРОВАНИЕ И РАЗВИТИЕ

### Резюме

В результате развития теоретических и практических подходов к понятию эмоционального интеллекта в психологии со временем возникли различные модели и концепции. В представленной научной статье рассматриваются формирование и этапы развития смешанных моделей эмоционального интеллекта. Каждая модель анализируется с указанием её формирования, структурных компонентов и прикладного значения. Таким образом, теоретический анализ смешанных моделей эмоционального интеллекта, возникших как результат различных подходов и вызывающих широкие дискуссии, занимает важное место в современном понимании и оценке данного понятия.

**Ключевые слова:** эмоциональный интеллект (ЭИ), модели эмоционального интеллекта, смешанные модели

**Aytan Ilham ALISHANLI**
Baku State University, doctorial student
E-mail: alishanli.aytan.ilham@bsu.edu.az

## MIXED MODELS OF EMOTIONAL INTELLIGENCE: FORMATION AND DEVELOPMENT

### Summary

As a result of the gradual development of theoretical and practical approaches to the concept of emotional intelligence in psychology, various models and concepts have emerged. The presented scientific article examines the formation and stages of development of mixed models of emotional intelligence. Each model is analyzed with an indication of its formation, structural components, and applied significance. Thus, the theoretical analysis of mixed models of emotional intelligence, which emerged as a result of various approaches and provoke wide discussions, occupies an important place in the modern understanding and evaluation of this concept.

**Keywords:** emotional intelligence (EI), models of emotional intelligence, mixed models